# QARABAĞ VULKANİK YAYLASI FZİKİ-COĞRAFİ RAYONUNUN LANDŞAFTLARININ STRUKTUR-GENETİK TƏHLİLİ

**Flora Məmmədova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, flora-mammadova@mail.ru*

Qarabağ vulkanik yaylası fiziki-coğrafi rayonunun ərazisi bütövlükdə dağ landşaft sinfinə aid olmaqla özünəməxsus mürəkkəb geosistem müxtəlifliyi ilə səciyyələnir. Ərazinin yüksək dağlıq zonasında subnival, alp və subalp çəmənlikləri, qismən yüksək və orta dağlıq ərazilərdə fıstıq-vələs, palıd-vələs, alçaq və orta dağlıqda isə palıd-vələs meşələri, meşə kolluq landşaftları formalaşmışdır. Rayonunun relyefi landşaftların struktur-genetik elementlərindən biri kimi geniş təhlil edilmişdir.




**Şəkil 1.** Landsat-8 peykinin 07.08.2020-ci ilə aid 169-032 fraqmenti üzrə landşaftların ilkin emalı




**Şəkil 2.** Qarabağ vulkanik yaylası fiziki-coğrafi rayonunun meyllilik xəritəsi

Qarabağ vulkanik yaylası fiziki-coğrafi rayonunun ərazisi dağlıq olduğu üçün burada landşaftların differensiasiyasında, geosistemlərdə baş verən geofiziki və geokimyəvi proseslərdə, təbii resurs potensialının formalaşmasında və s. relyef göstəricilərinin (səmt, meyllilik, parçalanma və s.) və yüksəklik qurşaqlarının böyük rolu vardır. "ArcGİS" proqramı əsasında ərazinin bir çox relyef xüsusiyyətləri (meyllilik, baxarlıq, üfiqi və şaquli parçalanma kəmiyyətləri) işlənib təhlil edilmiş, peyk (Landşaft 8) məlumatları əsasında bitki örtüyünün müxtəlif yüksəkliklər üzrə yayılması öyrənilmişdir (şəkil 1).

DEM modeli əsasında əldə edilmiş morfometrik göstəricilərə əsasən, müəyyən edilmişdir ki, fiziki-coğrafi rayonun 11,9%-i dəniz səviyyəsindən 1700 m yüksəkliyə qədər, 83,2%-i 1700-3200 m yüksəkliklər arasında, 4,9%-i isə 3200 m-dən yüksək olan ərazilərdə yerləşir. Fiziki-coğrafi rayonun ərazisinin böyük hissəsini (67,8%) meylliliyi 3-20° arasında olan yamaclar təşkil edir. Ən zəif meyllilik göstəricisi 0-3° arasında (6,5%), ən yüksək meylliliyə malik ərazilərdə (0,04%) isə 46-70° arasında dəyişir (şəkil 2). "ArcGİS" proqramı və peyk görüntülərinin təhlili nəticəsində əldə etdiyimiz məlumatlara əsasən, fiziki-coğrafi rayonun 0,4%-ni su, 25,1%-ni bitki olmayan ərazilər,

74,5%-ni bitki örtüyü təşkil edir. 3200 m yüksəklikdən yuxarı ərazilərin ümumi sahəsi 1529,8 $km^2$ olmaqla cəmi 2%-i (31,4 $km^2$) bitki örtüyünə malikdir. Qarabağ vulkanik yaylası fiziki-coğrafi rayonunun 1452,5 $km^2$ sahəsi hündürlüyü 1700 m-ə qədər olan ərazilərdə yerləşir və bu yüksəkliyə qədər olan ərazinin bitki örtüyünün sahəsi 77,3 $km^2$-dir (5,1%).

Tədqiqatda ilk dəfə olaraq "ArcGİS" proqramı və peyk görüntüləri əsasında Qarabağ vulkanik yaylası fiziki-coğrafi